# Qələbədən ötən bir il...



***2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi 44 gün davam etdi və Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Bununla da işğal altındakı ərazilərimiz düşməndən təmizləndi.***

Silahlı Qüvvələrimiz İkinci Qarabağ savaşında mərdliklə, şücaətlə döyüşdü, tarixdə bənzəri olmayan qəhrəmanlıqlar nümayiş etdirdi, müharibədə möhtəşəm qələbəni canı-qanı bahasına qazandı. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev çıxışlarının birində bu barədə deyib: "Düşmən işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmaq istəmirdi və 30 il ərzində o ərazilərdə qurulan istehkamları yarıb keçmək, o müdafiə xətlərini dəf etmək çox böyük qəhrəmanlıq və hərbi peşəkarlıq tələb edirdi.

***(ardı 2-ci səhifədə)***

# Qələbədən ötən bir il...



*(əvvəli 1-ci səhifədə)*

Bir də ki, o bölgənin coğrafiyası özlüyündə bir istehkamdır. Şuşa alınmaz qala sayılan bir şəhərdir. Pənahəli xan o şəhəri elə salmışdır ki, Şuşa sakinlərini düşməndən maksimum dərəcədə mühafizə edə bilsin. Şuşanı bir neçə gün ərzində az itkilərlə və şəhərə böyük zərər vurmadan almaq böyük peşəkarlıq, rəşadət rəmzidir. Düşmən 30 il bu torpaqlarda hazırlıq işləri görüb. Bu hazırlıq işləri onu göstərir ki, öz xoşu ilə torpaqlarımızdan çıxmaq istəmirdi. Əgər istəsəydi, bu məsələlərə nə üçün bu qədər vəsait ayırırdı? Bu, onu göstərir ki, bütün bu dövr ərzində – 30 ilə yaxın dövr ərzində düşmən, sadəcə olaraq, bizi aldadırdı, vasitəçiləri aldadırdı ki, onlar bizim torpaqlarımızdan çıxacaqlar. Bu, yalan idi və döyüş meydanında mövcud olan mənzərə bunu təsdiqləyir…”.

Erməni faşizmi Azərbaycanın 20 faiz ərazisini tapdaq altında saxlamaqla yanaşı, o ərazilərdə həm də işğalın davam etdiyi uzun illər ərzində dəhşətli vəhşiliklər törətmişdi, xalqımıza məxsus tarix və mədəniyyət abidələrini vandalizmə məruz qoymuşdu, yaşayış sahələrini yerlə-yeksan etmişdi, müqəddəs ocaqlarda inək, donuz saxlamışdı. Bütün yaşıllıqları doğramış, təbii sərvətlərimizi talayaraq Ermənistana daşımışdı. Düşmən işğal dövründə yaşayış məntəqələrimizin bir qismində isə qanunsuz məskunlaşma aparmışdı, Suriya, Livan və digər ölkələrdən gətirilən ermənilər üçün Şuşa, Cəbrayıl, Zəngilan və Laçında qəsəbələr salmış, yaxud azərbaycanlılara məxsus evlərdə yerləşdirmişdi.

Bütün bu vəhşiliklər, barbarlıqlar və qanunsuz məskunlaşma qarşısında dünya birliyi susurdu, Minsk qrupu biganəlik göstərirdi. Dövlətimizin başçısının çıxışlarının birində vurğuladığı kimi, əgər düşmən 1990-cı illərin əvvəllərində qanunsuz məskunlaşmanı gizlin şəkildə edirdisə, son vaxtlar o qədər azğınlaşmışdı ki, bunu heç gizlətməyə də ehtiyac duymurdu, hətta bu barədə televiziyalarında reportajlar yayımlayır, bu ərazilərin Ermənistan torpağının bir hissəsi olduğunu bildirirdi.

Vətən müharibəsindən dərhal sonra erməni vandallarının xarabazara çevirdikləri əzəli-əbədi yurdlarımızın bərpası, inkişaf axarına qovuşması, sosial-iqtisadi dirçəlişi dövlətimizin qarşısında duran ən mühüm vəzifəyə çevrildi. Prezident İlham Əliyev tərəfindən hər zaman olduğu kimi, Qarabağın bərpasına başlanan ilk gündən bu istiqamətdə də aydın planlar, strateji hədəflər müəyyənləşdirildi və quruculuq işləri getdikcə intensivləşdirildi. Azərbaycan, eyni zamanda, kommunikasiyaların açılması ilə bağlı fəaliyyətini genişləndirdi, Zəngəzur dəhlizi layihəsinin icrasını diqqət mərkəzində saxladı.

Yeri gəlmişkən, Vətən müharibəsində məğlubiyyətə uğrayan Ermənistanın imzalanan üçtərəfli bəyanata əsasən üzərinə götürdüyü kapitulyasiyanın tələblərindən biri də bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa olunmasının zəruriliyi idi. Başqa sözlə, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının reallaşdırılması nəzərdə tutulurdu. Cari il fevralın 14-də Prezident İlham Əliyevin Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoyması da işğalçının üzərinə götürdüyü kapitulyasiyanın- bəyanatın 9-cu maddəsinin icrasına başlanılmasının bariz ifadəsi idi.

Bu gün Zəngəzurda dəmir və avtomobil yollarının salınması prioritet vəzifə kimi, qarşıda durur, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir.

Xatırladaq ki, əməkdaşlıq və nəqliyyat baxımından Zəngəzur dəhlizinin yaradılması Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan sənədlər arasında ən mühüm məsələlərdən biri sayılır və bu, Ermənistan da daxil olmaqla bütün regional ölkələrin maraqlarına xidmət edir. Azərbaycan bölgədə davamlı sülhün bərqərar olunması üçün əsas vasitəni əməkdaşlıqda görür və buna görə də Zəngəzur dəhlizin yaradılmasını, nəqliyyat əlaqələrinin bərpasını qətiyyətlə dəstəkləyir.

Son bir ildə Qarabağ və Şərqi Zəngəzurun düşmən tərəfindən darmadağın edilən şəhər və kəndlərinə həyat yenidən qayıdır. Azadlığına qovuşmuş torpaqlarımızda böyük quruculuq və bərpa işləri aparılır. Prezident İlham Əliyev azad edilmiş rayonlara çoxsaylı səfərləri zamanı strateji infrastruktur obyektlərinin açılışını edir, yenilərinin təməlini qoyur. Dövlətimizin başçısının bu müddətdə Şuşa, Füzuli, Zəngilan, Xocavənd, Cəbrayıl, Ağdam, Qubadlı, Laçın, Kəlbəcər, Talış və Suqovuşana, ümumilikdə, 40-a yaxın səfəri bunun bariz ifadəsidir.

İşğaldan azad edilən ərazilərdə bərpa-quruculuq işləri başlanan vaxtdan indiyədək Horadizdən Şuşayadək 101 kilometr uzunluğunda Zəfər yolu, Füzuli Beynəlxalq Hava Limanı, həmçinin Suqovuşan, Laçın, Füzuli, Qubadlı, Zəngilan və Cəbrayılda elektrik stansiyaları istifadəyə verilib. Şuşada Molla Pənah Vaqifin büstü və muzey-məqbərə kompleksinin, Bülbülün ev-muzeyinin, Üzeyir Hacıbəylinin heykəlinin açılışı olub, yeni məscidin, yaşayış məhəlləsinin, Radio-Televiziya Yayım Stansiyasının, Mərkəzi Xəstəxananın, Daşaltı məscidinin təməli atılıb.

Bundan başqa, Əhmədbəyli-Füzuli-Şuşa, Füzuli-Hadrut, Füzuli-Ağdam, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Bərdə-Ağdam, Zəngilan-Horadiz, Xanlıq-Qubadlı, Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yollarının, Horadiz-Ağbənd dəmir yolu xəttinin çəkilişinə başlanılıb. Eyni zamanda, Zəngilan və Füzulidə “ağıllı kənd” layihələrinin icrası diqqət mərkəzində saxlanılıb.

Azad olunmuş ərazilərdə quruculuq işləri “Ağıllı kənd” və “Ağıllı şəhər” konsepsiyasına əsasən aparılır. Artıq Zəngilan rayonunda ilk “Ağıllı kənd”in inşası başa çatmaq üzrədir. Bu kənd azad olunmuş ərazilərə Böyük qayıdışın ilk məntəqəsi olacaq.

Kəndin inşasında çoxsaylı innovativ yanaşmalar tətbiq olunub. Burada enerjiyə tələbat “Yaşıl enerji” sistemi ilə təmin ediləcək. Dayanıqlı enerji təminatı Həkəri çayı üzərində inşa olunan Arximed qurğusu tipli su elektrik stansiyaları vasitəsilə həyata keçiriləcək. Arximed qurğusu vasitəsilə alınan enerji hesabına kənd öz enerji tələbatını ödəyəcək.

“Ağıllı kənd”də evlərin dam hissəsində yerləşdirilən vaakum Günəş kollektorları vasitəsilə enerji toplanaraq evlərin və suyun qızdırılmasında istifadə ediləcək. Evlərdə quraşdırılacaq anod-katod sistemləri otaqları daha az enerji sərfiyyatı ilə qızdırmağa imkan verəcək. “Ağıllı kənd”də həmçinin “Ağıllı kənd təsərrüfatı” sistemi üzrə camışçılıq ferması, “Ağıllı ictimai ferma” istifadəyə veriləcək, emal müəssisələri yaradılacaq, dəyər zənciri formalaşdırılacaq.

Füzuli rayonunun Dövlətyarlı kəndində alternativ enerji həlləri məqsədilə Günəş paneli tarlası salınacaq. Kənddə ağıllı akvakultura sistemlərinin tətbiqi nəticəsində ixracyönümlü balıqçılıq və quşçuluq təsərrüfatlarının qurulması, kartofçuluq üzrə dəyər zəncirinin formalaşdırılması da nəzərdə tutulur.

Prezident İlham Əliyevin iştirakı ilə Ağdam, Füzuli, Cəbrayıl şəhərlərinin bərpasının da təməl daşı qoyulub, digər şəhərlərimizin isə baş planı hazırlanır. Həmçinin Ağdamda sənaye parkının, Cəbrayılda “Araz Vadisi İqtisadi Zonası” sənaye parkının, Zəngilan və Laçında Beynəlxalq Hava limanlarının, Hadrut qəsəbəsində yeni məscidin və digər infrastruktur obyektlərinin təməlqoyma mərasimləri keçirilib.

Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş (Şuşa rayonu istisna olmaqla) ərazilər üzrə xüsusi nümayəndəsi Emin Hüseynov mətbuata müsahibəsində bildirib: “İşğaldan azad olunmuş bir sıra rayonların baş planları artıq hazırlanıb. Bunlar Ağdam, Füzuli, Cəbrayıl rayonları və Şuşa şəhəridir. Digər ərazilərdə də işlər davam etdirilir. Demək olar ki, böyük ehtimalla bu işlər gələn il yekunlaşacaq. Bu işlərlə paralel olaraq, minatəmizləmə əməliyyatlar da davam etdirilir. Çünki çirklənmiş ərazilər həddən çoxdur. Bundan başqa, baza infrastruktur layihələri icra edilir, 10-dan çox avtomobil yolunun tikintisi başlayıb. Şərqi Zəngəzur iqtisadi rayonunda dəmir yolu ilə bağlı layihələr yeni ildən qrafikə uyğun davam etdiriləcək”.

Xüsusi nümayəndə qeyd edib ki, elektrik sistemlərinin qurulması işləri demək olar yekunlaşıb. Qarabağ bölgəsində demək olar bütün yarımstansiyalar tikilib. Bundan əlavə, müxtəlif alternativ enerji mənbələrinin yaradılması planlaşdırılır. Bunlar günəş, külək, həmçinin su elektrik stansiyalarıdır. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə yeni iş yerlərinin yaradılması prosesinə də başlanılacaq.

Xatırladaq ki, Qarabağ İqtisadi rayonuna daxil olan düşməndən təmizlənən ərazilərdə Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin Qərargahı Ağdam rayonunda yerləşir və ən son “ağıllı” texnologiyalar əsasında tikilib. Xüsusi Nümayəndəlikdən bildirilib ki, ümumilikdə 1 hektar sahəni əhatə edən müvəqqəti qərargahın ərazisi “Camp” və “İnzibati ərazi” olaraq ikiyə ayrılıb və inşası əsasən yaşayış, iaşə, inzibati, sağlamlıq, “smart camp” idarəetmə sistemi, alternativ enerji sahələri kimi 6 komponent üzrə icra edilib.

Müasir şəhərsalma standartlarının tətbiq olunması ilə inşa olunan qərargah sahəsindəki binaların bütün daxili mühəndis kommunikasiya, isitmə sistemlərinin ağıllı texnologiyalar əsasında qurulması ilə yanaşı alternativ enerji mənbələri ilə təmin edilməsi, daxili və xarici yolların “ağıllı” işıqlandırılması, məişət tullantılarının idarə olunması, günəş panellərindən və bioqaz enerjisindən istifadə olunması kimi amillər də tikinti konsepsiyasına daxil edilib.

Bunlardan əlavə qərargahın landşaft dizaynına uyğun olaraq, ərazinin yaşıllaşdırılması zamanı flora və iqlim mühitini də diqqətə alaraq əraziyə uyğun bitki və ağaclara üstünlük verilib. Düşərgənin yaşıllaşdırılma konsepsiyasında ərazidəki mövcud bitki və ağacların da qorunub saxlanılması ilə yanaşı, ilin hər fəslinə uyğun 30-dan çox adda əlavə ağac və bitki kolları da əkilərək, ümumilikdə 3300 kvadratmetr ərazidə yaşıllıq sahəsi salınıb. Burada yaşıllıqların suvarılması üçün müasir sistemlərə uyğun olaraq 3500 metr sahədə avtomatlaşdırılmış damcılama və çiləmə sistemləri tətbiq edilib.

Qərargahın avtomobil yollarına və dayanacaqlarına asfalt örtüyü çəkilib, daxili piyada yolları isə müasir görünüşlü, ən son texnologiyalarla preslənmiş tamet daşları ilə döşənib.

Qarabağ və Şərqi Zəngəzurda tikilən 9 yarımstansiyanın hamısı Azərbaycanın ümumi enerji sisteminə qoşulmaqla yanaşı, tam rəqəmsallaşdırılıb.

İşğaldan azad edilən ərazilərin “yaşıl enerji” zonasına çevrilməsi, sözügedən rayonların ən qısa vaxtda Azərbaycanın ümumi enerji sisteminə qoşulması ilə bağlı Prezident İlham Əliyevin enerji strategiyasına uyğun olaraq 2021-ci ildə kompleks işlər həyata keçirilib. Belə ki, dördüncü Sənaye inqilabına uyğun olaraq intellektual enerji sistem konsepsiyası həyata keçirilərək müasir, dayanıqlı, rəqəmsallaşdırılmış yarımstansiyalar modeli formalaşdırılıb. İstismara verilən rəqəmsal yarımstansiyalarda aktivlərin, proseslərin, resursların idarə edilməsi, açılıb qoşulma əməliyyatları, tədarük və paylanma zəncirlərinin təkmilləşdirilməsi, qüsurların vaxtında aradan qaldırılması, problemlərin tez həlli proqram təminatı vasitəsilə avtomatik həyata keçirilir.

Bu günədək Qarabağ və Şərqi Zəngəzurda “Güləbird”, “Suqovuşan-1” və “Suqovuşan-2” kiçik su elektrik stansiyaları yenidən qurularaq istismara verilib. “Kəlbəcər-1” Kiçik Su Elektrik Stansiyasında isə yenidənqurma işləri tamamlanıb. Bu 4 elektrik stansiyasının ümumi gücü 20 meqavatdan artıqdır.

Qarabağ və Şərqi Zəngəzurda 110/35/10 kV-luq 9 rəqəmsal yarımstansiya tikilib. Mayın 12-də “Şuşa”, iyunun 14-də “Füzuli” və “Şükürbəyli”, avqustun 16-da “Kəlbəcər”, oktyabrın 4-də “Cəbrayıl”, oktyabrın 20-də “Zəngilan”, oktyabrın 25-də isə “Qubadlı” yarımstansiyalarının açılışı olub.

Ağdam rayonunda inşa edilən 110/35/10 kV-luq “Ağdam-1”, “Ağdam-2” yarımstansiyalarının, o cümlədən “Qarabağ” Regional Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi yekunlaşıb.

“Şükürbəyli” yarımstansiyasına Beyləqandan 51 kilometr məsafədə 110 kV-luq yeni xətt çəkilib. Ən əsası Şükürbəylidən Şuşaya 75 kilometr, eyni zamanda, “Cəbrayıl” və “Qubadlı” yarımstansiyalarına giriş-çıxış olmaqla “Zəngilan” yarımstansiyasına qədər 110 kilometr məsafədə ikidövrəli olmaqla 110 kV-luq ötürmə xətti çəkilib və “Qubadlı” yarımstansiyasından “Güləbird” SES-ə 19 kilometr məsafədə 110 kV-luq xətt inşa edilib. Bundan əlavə “Daşkəsən” yarımstansiyasından Murov dağını keçməklə yeni tikilən “Kəlbəcər” yarımstansiyasına 70 kilometr məsafədə ikidövrəli olmaqla 110 kV-luq ötürmə xətti gətirilib. Həmçinin “Xındırıstan” yarımstansiyasından minalanmış əraziləri keçməklə yeni tikilən “Ağdam-1” və “Ağdam-2” yarımstansiyalarına 35 kilometr məsafədə ikidövrəli olmaqla 110 kV-luq ötürmə xətti çəkilib.

Prezidentin azad edilmiş torpaqlarımızla bağlı ilk tapşırığı bu torpaqların əkilib-becərilməsi ilə bağlı olub. Bu tapşırığa əsasən müharibənin başa çatdığı ilk günlərdən etibarən Kənd Təsərrüfatı Nazirliyi və digər aidiyyəti qurumlar tərəfindən işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının gələcək inkişafının planlaşdırılmasına başlanılıb.

Göründüyü kimi, son bir ildə işğaldan azad edilən ərazilərin yenidən qurulması, həmin torpaqlarda ən müasir infrastrukturun yaradılması və mədəni-tarixi abidələrin bərpası istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilib. Bu çərçivədə icra olunan layihələr isə həmin yerlərin qısa müddət ərzində sülh və əməkdaşlıq bölgəsinə çevrilməsini, həmçinin iqtisadi inkişafını şərtləndirib.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***